

Bu il Azərbaycanda keçiriləcək “Bakı 2017 İslam Həmrəyliyi Oyunları”nın xarici ölkələr üzrə səfirlərindən daha biri bəlli olub.

“ Qafqazinfo ” xəbər verir ki, şeyx Səid Əl Məktum 4-cü İslam Həmrəylik Oyunlarının fəxri səfiri seçilib. Bu barədə şeyxin azərbaycanlı xanımı, tanınmış bədii gimnast, beynəlxalq dərəcəli idman ustası Zeynəb Cavadlı öz feysbuk hesabında yazıb.

O, qeyd edib ki, şeyx bu proqrama töhvə verəcəyi üçün xoşbəxtdi və sözügedən tədbirlərin gənclərin gələcək fəaliyyətində vacib mərhələ olacağına inanır.

Qeyd edək ki, Zeynəb Cavadlı Səid Əl-Məktumun sayca üçüncü həyat yoldaşıdır. Onun ilk arvadı şeyxə Suhailadır. Şeyx ikinci arvadı, əslən azərbaycanlı olan Əliyeva Natalya Müslüm qızı ilə Minskdə keçirilən yarışlar zamanı restoranlardan birində tanış olub. Bir zamanlar ofisiant kimi çalışan Natalya şeyxlə evlilikdən sonra adın dəyişərək Ayşə edib və İslam dinini qəbul edib. Səidin üçüncü arvadı isə Zeynəbdir. Şeyxin bu üç evlilikdən 9 övladı var. Hazırda Səid Əl Məktumun bütün arvadlarının ailələri onlarla birlikdə Dubayda ayrı-ayrı imarətlərdə yaşayır.